# “AZƏRBAYCAN RESPUBLİKASINDA 2009-2015-ci İLLƏR ƏRZİNDƏ ELMİN İNKİŞAFI ÜZRƏ MİLLİ STRATEGİYA”NIN İCRASI

**2016-cı il xalqımız üçün dövlət müstəqilliyimizin iyirmi beş illik yubileyi ilə əlamətdardır. Ümummilli lider Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan iyirmi beş ildir ki, öz strateji hədəflərinə doğru inamla addımlamaqdadır. Siz yaxşı bilirsiniz ki, yaşadığımız müasir dünya mürəkkəb sosial, siyasi, iqtisadi proseslərlə, kataklizmlərlə müşayiət olunan dünyadır. İndi həm ayrı-ayrı dövlətlərin, həm də bütövlükdə planetin təhlükəsizliyi və davamlı inkişafı baxımından intellektual sərvətin rolu əvvəlki dövrlərdən fərqli olaraq, tamamilə yeni bir məzmun kəsb edir. Bu gün bütün sivil dünya birmənalı olaraq qəbul edir ki, müasir qloballaşma şəraitində sosial tərəqqi əsasən hakimiyyətlə intellektin vəhdətindən asılıdır.**

Ümummilli lider Heydər Əliyev kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev hələ on il bundan əvvəl “neft kapitalının insan kapitalına çevrilməsi” strategiyasını elan etməklə intellektual inkişaf modelinə əsaslanan cəmiyyət quruculuğunun Azərbaycan üçün əsas məqsəd olduğunu bütün dünyaya bəyan etmişdi. Bəli, 25 illik yubileyinə yaxınlaşdığımız müstəqil Azərbaycanın inkişafının əsasında, qeyd etdiyim kimi, hakimiyyətlə intellektin vəhdəti strategiyası dayanır. Dünyada və regionda baş verən böhranlara, kataklizmlərə baxmayaraq, biz bu gün də “Azərbaycan 2020: gələcəyə baxış” Konsepsiyasında bəyan edildiyi kimi, inkişafımızı davam etdiririk.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə nüfuzu günü-gündən artmaqdadır. Ölkəmiz çoxsaylı mötəbər tədbirlərin – Humanitar və qlobal forumlar, Avropa oyunları, “Formula-1” Avropa Qran Prisinin təşkil olunduğu, mədəniyyət və musiqi tədbirlərinin — “Eurovision” mahnı müsabiqəsi və s.-nin yüksək səviyyədə baş tutduğu məkanlardan birinə çevrilmişdir. Bugünkü Azərbaycanın hərtərəfli inkişafı bunun bariz göstəricisidir.

Azərbaycan elminin inkişafı baxımından milli strategiya, əlbəttə, mühüm sənədlərdən biridir. Yeddi il bundan qabaq cənab Prezident İlham Əliyev bu Strategiyanın hazırlanması ilə bağlı tarixi Sərəncam imzalamışdır. Keçən müddət ərzində Azərbaycan elminin inkişafında bu strategiya müstəsna rol oynamışdır.

Bildiyiniz kimi, cənab Prezidentin Sərəncamı əsasında dövlətin elmi fəaliyyət sahəsində siyasətini həyata keçirən ali qurumu olaraq Azərbaycan Milli Elmlər Akademiyası Strategiyanın icrası üzrə əsas koordinator müəyyən edilmişdir. Eyni zamanda Strategiyanın icrası üzrə Dövlət Proqramında respublikanın bir sıra dövlət qurumları, nazirlik və komitələri icraya məsul orqanlar olaraq müəyyənləşdirilmişdir. Keçən müddət ərzində Strategiyanın icrasını təmin etmək məqsədilə Elmlər Akademiyası digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Strategiyanın ayrı-ayrı istiqamətləri üzrə vəzifələrin icrası zamanı müvafiq sahələrə məsul olan dövlət qurumları Akademiyaya yaxından dəstək oldular. Həmin nazirliklərin, dövlət qurumlarının rəhbərləri, məsul nümayəndələri bu gün bu tədbirdə iştirak edirlər. Mən onların hamısına öz dərin təşəkkürümü bildirirəm.

Ötən müddət ərzində Strategiyanın icrası ilə bağlı həyata keçirilən çoxsaylı tədbirlər, tapşırıqların icrası istiqamətindəki fəaliyyət Sizlərə paylanmış “Elmin inkişafı üzrə Milli Strategiyanın Hesabatı” kitabında geniş əks olunmuşdur. Mənə icazə verin vacib olan istiqamətlər üzrə bir sıra məqamları özündə əks etdirən Hesabat məruzəmizi Sizin diqqətinizə çatdırım.

Elmin inkişafı üzrə Milli Strategiyada Azərbaycan elminin gələcək hədəflərini, elmi fəaliyyət sahəsində kompleks yeniləşmələri nəzərdə tutan bir sıra mühüm istiqamətlər öz əksini tapmışdır.

Strategiyada qarşıya qoyulan vacib vəzifələrdən biri respublikada elmi-tədqiqat müəssisələrinin sistemli təsnifatı, elmi və elmi-təşkilati fəaliyyətin dəyərləndirilməsidir. Bu baxımdan 2009-cu ildən başlayaraq müvafiq tədbirlər həyata keçirilmişdir. Respublikanın baş elmi qərargahı olan Elmlər Akademiyasında elmi analitik təhlillər aparmaq üçün müvafiq struktur dəyişikliyi edilmiş, bu sahədəki işin səmərəli təşkili nəticəsində elmi fəaliyyətin dəyərləndirilməsinin müasir dövrün standartlarına uyğun vahid meyar və prinsipləri işlənib hazırlanmışdır. Respublika üzrə elmi tədqiqat müəssisələri haqqında toplanmış məlumatlar elmmetrik metodologiyası baxımından təhlil edilmiş, konkret proqram əsasında 2009-2013-cü illər ərzindəki elmi fəaliyyətin ilkin qiymətləndirilməsi həyata keçirilmişdir. Hazırda elmmetrik tədqiqatlar istiqaməti akademik elmin mühüm prioritetlərindən birini təşkil edir.

Aparılan monitorinq nəticəsində məlum olmuşdur ki, respublika üzrə akademik, sahə və ali təhsil elmi müəssisələri nəzdində fəaliyyət göstərən tədqiqat qurumlarının bəziləri müasir dünya elminin inkişaf tendensiyalarına və ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə tam cavab vermir. Müəyyən edilmişdir ki, elmin qarşısında tamamilə yeni vəzifələrin dayandığı bir şəraitdə onlar öz fəaliyyətlərini hələ də sovet elmi stereotiplərinin daşıyıcısı olaraq davam etdirirlər. Monitorinqin nəticələri əsasında respublika üzrə bir sıra elmi müəssisələrin ləğvi, yeni qurumların yaranması ilə bağlı müvafiq qərarlar qəbul olunmuşdur. Əlbəttə, bu sahədə işi başa çatmış hesab etmək olmaz. Lakin elmi fəaliyyətin dünyanın qəbul etdiyi müasir standartlar əsasında dəyərləndirilməsi və ilkin nəticələrin əldə olunmasının özü, xüsusən elmmetrik tədqiqatların genişlənməsi, zənnimizcə, təqdirəlayiq bir haldır.

Elmi fəaliyyətin düzgün qiymətləndirilməsi nəticəsində Azərbaycan elmində müşayiət olunan müsbət tendensiyalar nüfuzlu beynəlxalq informasiya bazalarında əks olunan konkret rəqəmlərdə də təsdiqini tapır. Məsələn, dünyanın nüfuzlu SCOPUS elm bazasının hazırladığı reytinq cədvəllərində son illər üzrə Azərbaycan elminin mövqeyi xeyli yüksəlmişdir.

Məlumdur ki, elmi prioritetlərin müəyyənləşdirilməsi hər bir ölkənin elm siyasətinin mühüm vəzifələrindən biridir. Strategiyada da bu məqam xüsusi vurğulanır. Burada iki mühüm meyar əsas götürülmüşdür:

— birincisi, dünya elminin inkişaf tendensiyaları;

— ikincisi, ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafından irəli gələn Azərbaycan elminin hədəfləri.

Belə bir yanaşma Azərbaycanda dövlət siyasətinin fundamental prinsiplərindən biridir və bütün digər dövlət sənədlərində, xüsusən də “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında öz əksini tapmışdır.

2014-cü ildə Azərbaycan alimlərinin birinci Qurultayında da diqqət mərkəzinə gətirilən məsələlərdən biri məhz Azərbaycan elmi prioritetlərinin dünya elminin inkişaf tendensiyalarına uyğunlaşdırılması idi. Belə ki, halhazırda prioritet istiqamətlərin inkişafı üçün Akademiyada Molekulyar Biologiya və Biotexnologiyalar, Biofizika, Qafqazşünaslıq və s. kimi yeni elmi istiqamətlər üzrə elmi müəssisələr, mövcud elmi müəssisələrdə isə yeni laboratoriya və şöbələr yaradılmışdır. Son illər dünyanın nüfuzlu elmi mərkəzləri və universitetləri ilə Akademiyada müştərək laboratoriyaların təşkili də məhz dünya elminin mühüm istiqamətlərinə uyğunlaşdırılması məqsədi daşıyır.

Məsələ ondan ibarətdir ki, son illər fənlərarası, multidissiplinar yanaşma respublika üzrə elmi müəssisələrdə elmi tədqiqatların əsas nəzəri-metodoloji yanaşması kimi təşviq edilir.

İkinci əsas meyar ölkənin daxili sosial-mədəni inkişafının tələbatıdır. Bu istiqamət üzrə bir məqamın üzərində dayanmaq istərdim.

Bildiyiniz kimi, bu yaxınlarda biz sizinlə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyini təntənə ilə qeyd etdik. Möhtərəm cənab Prezident Akademiyanın yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak edərək dərin məzmunlu çıxışı ilə, sözün həqiqi mənasında, Azərbaycan elminin respublikanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafı ilə şərtlənən prioritet istiqamətlər üzrə gələcək inkişaf strategiyasını bəyan etdi. Alimlərimiz qarşısında yeni mühüm vəzifələr qoydu.

Bunlar fundamental və tətbiqi tədqiqatların prioritetlərinin ölkənin yeni iqtisadi modelinin hazırlanmasına, xüsusən qeyri-neft sektorunun inkişafına uyğun müəyyənləşdirilməsi və həyata keçirilməsidir.

Cənab Prezidentin irəli sürdüyü prioritetlər vaxtilə Elmin İnkişaf Strategiyasında müəyyən edilmiş vəzifələrin konkret hədəflər üzrə davamı idi. Cənab Prezidentin nitqində qeyd olunan istiqamətlər üzrə biz Azərbaycan Respublikasının Təhsil, Səhiyyə, Müdafiə Sənayesi, Kənd Təsərrüfatı, İqtisadiyyat nazirlikləri, Dövlət Neft Şirkəti və başqa qurumları ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstəririk.

Aprel ayının əvvəllərində təmas xəttində baş verən hadisələr, Ali Baş Komandan İlham Əliyevin iradə və əzmkarlığının nəticəsində ordumuzun qələbələri bir daha sübut etdi ki, elmi potensialın ölkənin milli təhlükəsizliyinin qorunmasına səfərbər edilməsi istiqamətində həyata keçirilən işlər real nəticələr verir və bu istiqamətdə fəaliyyət daha da gücləndirilməlidir.

Strategiyada qarşıya qoyulan digər mühüm vəzifələrdən biri də dövlətin innovasiya siyasətinin həyata keçirilməsi sahəsindəki fəaliyyətidir. Bu günün reallığı ondan ibarətdir ki, bizdə hələ də elm və iqtisadiyyat ayrı-ayrı məkanlarda cərəyan edən proseslər kimi inkişaf edir. Halbuki, biliklərə əsaslanan iqtisadiyyatı yaratmaq üçün tək dövlət yox, həm də müxtəlif biznes strukturları yeni biliklərin əldə olunması işinə dəstək və kömək göstərməlidirlər. Təqdirəlayiq haldır ki, Strategiyanın icrası istiqamətində elm və iqtisadiyyat bir-birilərinə xeyli yaxınlaşmışdır. Son illərdə bu istiqamətdə də bir sıra uğurlara nail olunmuşdur. AMEA Rəyasət Heyətinin nəzdində İnnovativ Layihələrin Ekspertizası və Koordinasiyası Şurası fəaliyyət göstərir. AMEA-nın elmi müəssisələri Respublika Prezidenti tərəfindən təsdiq olunmuş iyirmiyə yaxın Dövlət Proqramının və digər sərəncamların həyata keçirilməsində yaxından iştirak edir.

Strategiyada innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi də mühüm istiqamətlərdən biri kimi qeyd olunmuşdur. Bu baxımdan AMEA-nın İşlər İdarəsinin Elm və Texnologiya Parkı ilə Təcrübə-Sənaye Zavodunun fəaliyyətini xüsusi qeyd etmək istərdim. Son dövrlər özünün yüksəliş mərhələsini yaşayan Təcrübə-Sənaye Zavodunda elmtutumlu məhsulların istehsalı sahəsində mühüm uğurlar əldə olunmaqdadır. Həmçinin Müdafiə Nazirliyinin Silahlı Qüvvələrin Hərbi Akademiyası və Müdafiə Sənayesi Nazirliyi ilə birgə ölkənin müdafiə qüdrətinin gücləndirilməsi, hərbi təyinatlı məhsulların istehsalı üzrə bir sıra layihələr də uğurla reallaşdırılmaqdadır. Təmas xəttində baş verən son hadisələr fonunda qeyd olunan layihələrin strateji əhəmiyyəti aydın görünür.

Akademiyada yeni yaradılmış Elm və Texnologiya Parkının uğurla həyata keçirdiyi layihələrdən biri də aqrar sahəyə aiddir. Respublikanın müxtəlif regionlarında yerləşən Akademiyanın Təcrübə-Dayaq Məntəqələrində qeyri-neft sektorunun inkişafı baxımından xüsusi əhəmiyyət daşıyan aqrar layihələr həyata keçirilir.

Elmin İnkişaf Strategiyasının tələblərinə müvafiq olaraq elm sahəsində idarəetmə sisteminin və elmi qurumların strukturunun təkmilləşdirilməsi, peşəkar idarəçilik funksiyalarını həyata keçirməyə qadir olan kadrların hazırlığını təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı əsasında Akademiyanın yeni strukturu təsdiq edilmişdir.

Strategiyanın icrası ilə əlaqədar olaraq bir ciddi məsələyə də toxunmaq istəyirəm. Siz bilirsiniz ki, müasir dövrün tələbləri səviyyəsində intellektual insan resurslarının formalaşdırılması dövlətin mühüm vəzifələrindəndir. Buna görə də Milli Strategiyada elm və təhsilin vahid sosial institut kimi inkişafı əsas hədəflərdən biri kimi qarşıya qoyulmuşdur. Bu vəzifələrin icrasını təmin etmək məqsədilə respublikada son illərdə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. AMEA-da magistratura təhsilinin təşkil olunması bu istiqamətdə real tədbirlərdən biridir.

Azərbaycanın ali məktəblərinin, doktorluq təhsilinin və elmi tədqiqatların modernləşdirilməsi ilə bağlı “Nizami” layihəsi də respublikada elm və təhsilin inteqrasiyası, eləcə də yüksəkixtisaslı kadr hazırlığının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində mühüm nailiyyətlərdən biri kimi qeyd oluna bilər.

Bütün bunlarla yanaşı, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi istiqamətində atılan addımlar nəticəsində AMEA-nın bir sıra elmi müəssisələrində ölkənin aparıcı təhsil müəssisələrinin baza kafedraları yaradılmış, birgə kadr hazırlığına dair əməkdaşlıq memorandumları imzalanmış və müxtəlif fənlər üzrə respublika olimpiadaları keçirilmişdir.

Elm və təhsil arasında əməkdaşlıq münasibətləri yalnız ali təhsil müəssisələrini deyil, həm də orta məktəbləri əhatə etmişdir. Şagirdlərin istedadlarının üzə çıxarılması, onların elmə marağının artırılması üçün bilik yarışları təşkil olunmuş, görkəmli alim və mütəxəssislərlə görüşlər keçirilmiş, regionlarda orta məktəb müəllimləri üçün İKT üzrə təlim kursları keçirilmişdir.

Strategiyanın icrası ilə bağlı həyata keçirilən tədbirlərin mühüm bir istiqamətini hüquqi islahatlar təşkil edir.

Əlbəttə, elmin normativ-hüquqi bazasının təmin edilməsi baxımından ən mühüm sənəd Azərbaycan Respublikasının “Elm haqqında” qanununun qəbul edilməsidir. Keçən müddət ərzində “Elm haqqında” qanunun qəbuluna nail ola bilməsək də, layihənin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görüldü. Güman edirik ki, Qanun yaxın vaxtlarda Milli Məclis tərəfindən qəbul ediləcəkdir.

Strategiyanın icra müddəti ərzində ölkədə intellektual mülkiyyətin qorunması, müəllif hüquqlarının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, informasiya cəmiyyəti şəraitində əqli mülkiyyətin müəyyənləşdirilməsi və hüquqi qorunması sahəsində mühüm addımlar atılmışdır.

Beynəlxalq elmi əlaqələrin inkişafı Strategiyada zəruri olan vəzifələrdən biri kimi qeyd olunmuşdur.

Bu gün elmimiz üçün əlamətdar örnəklər kimi fiziklərin CERN-də, Dubnada, geoloq və geofiziklərin MİT-də, bioloq və botaniklərimizin İsveçrədə iştirakını və başqa iri Avropa layihələrini göstərə bilərik.

Sevindirici haldır ki, hesabat müddəti ərzində AMEA alimlərinin İmpakt Faktorlu jurnallarda 3000-ə yaxın elmi məqalələri dərc olunmuşdur.

Beynəlxalq elmi əlaqələrin genişləndirilməsi sahəsində atılan mühüm addımlardan biri də elmi tədqiqat müəssisələrində xarici alimlərin iştirakı ilə birgə layihələrin həyata keçirilməsidir. Akademiyada ABŞ-ın, Almaniyanın, İtaliyanın nüfuzlu elmi mərkəzləri ilə birlikdə beynəlxalq laboratoriyalar yaradılmışdır.

Respublika Prezidentinin “Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında” müvafiq sərəncamının icrası ilə əlaqədar son illər AMEA-nın xeyli sayda gənc alimi dünyanın elmi mərkəzlərinə göndərilmişdir. Bu proses Akademiyada fasiləsiz olaraq davam etdirilir.

Ölkədə informasiya cəmiyyətinin formalaşması və inkişaf tempinə müvafiq olaraq elektron Azərbaycanın tərkib hissəsi kimi elektron elmin formalaşması istiqamətində əhəmiyyətli irəliləyiş əldə edilmiş, onun elektron-təhsil və digər onlayn mühitlərə inteqrasiyası təmin olunmuşdur. Elektron elmin platforması olan AzScienceNet elm kompüter şəbəkəsinin infrastrukturu geniş zolaqlı İnternet texnologiyaları əsasında yenidən qurulmuş, texnoloji bazası modernləşdirilmiş və funksional imkanları əhəmiyyətli dərəcədə artırılmışdır. Superkompüter və BigData texnologiyalarına tələbatı olan elmi problemlərin həlli üçün böyük imkanlara malik Data mərkəz istismara verilmiş, AMEA-nın regional qurumlarında distant tədris mərkəzləri şəbəkəsi yaradılmışdır. Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində Avropa Komissiyasının maliyyə dəstəyi ilə milli operator olaraq AzScienceNet kompüter şəbəkəsinin yüksək sürətlə Pan-Avropa şəbəkəsinə qoşulması nəzərdə tutulmuşdur. Bununla yanaşı, Avropa Nüvə Tədqiqatları mərkəzinin (CERN) Akademiyada milli grid infrastrukturu yaradılmışdır. Elmin İKT təminatının qiymətləndirilməsi üçün mütəmadi monitorinqlər keçirilmiş, elmi müəssisələr müasir kompüter texnologiyaları və yüksək sürətli internetlə təmin edilmişdir. Elmi müəssisələrin fəaliyyəti haqqında ictimaiyyəti məlumatlandırmaq üçün çoxlu sayda veb-saytlar istismara verilmiş, Akademiyanın ElmTV İnternet televiziyası fəaliyyətə başlamışdır. Alimlərin informasiya təminatı istiqamətində də mühüm işlər görülmüşdür. Belə ki, alimlərimiz nüfuzlu beynəlxalq elmi bazalardan istifadə etmək imkanı əldə etmişlər. Sevindirici hal odur ki, artıq ölkəmizdə bilik sahələri sürətlə informasiyalaşır, riyazi üsullar geniş tətbiq olunur, bioinformatika, geoinformatika, kompüter dilçiliyi, informasiya iqtisadiyyatı və s. kimi yeni-yeni multidissiplinar fənlər meydana çıxır. Respublikanın əksər elm və təhsil müəssisələrində elektron kitabxanalar yaradılır və inkişaf etdirilir. Akademiyanın yeni inşa edilmiş Mərkəzi Elmi Kitabxanası müasir İKT ilə təchiz olunmuş və elektronlaşdırılmışdır. Respublika Elmi-Tədqiqatların Əlaqələndirilməsi Şurasının və onun strukturuna daxil olan elmi şuraların fəaliyyətinin informasiyalaşdırılması üçün elektron elmin tərkib hissəsi kimi bir sıra İKT layihələr həyata keçirilir, müxtəlif reyestrlər, analitik-informasiya sistemləri yaradılır. Elmlər Akademiyasında doktoranturaya qəbul və minimum imtahanları artıq kompüter texnologiyaları əsasında test üsulu ilə həyata keçirilir. On mindən çox doktoranta informatika fənni üzrə yüksək səviyyəli biliklər tədris olunmuşdur.

Ümumiyyətlə, aparılan monitorinqlər göstərir ki, ölkəmizdə elektron elmin formalaşma prosesi və inkişaf dinamikası çoxprofilli İKT indikatorlarının qiymətlərinə görə respublika səviyyəsində layiqli yer tutur.

Strategiyanın tələblərinə müvafiq olaraq hesabat müddətində elmin populyarlaşdırılması və ictimaiyyətlə münasibətlərin qurulması istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir.

Elmi mühitdə baş verən proseslərlə mütəmadi olaraq cəmiyyətin məlumatlandırılması üçün yeni Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri məcmuəsi və “Elm dünyası” jurnalları təsis olunmuş, “Elm və həyat” jurnalının işi tamamilə yenidən qurulmuşdur. Həmçinin AMEA-nın coxşaxəli fəaliyyəti haqqında informasiyaların Azərbaycan və dünya ictimaiyyətinə çatdırılması, eləcə də AMEA əməkdaşlarının beynəlxalq elmi informasiya mühiti ilə əlaqələrinin təmin edilməsi məqsədilə bir sıra mühüm addımlar atılmışdır.

2014-cü ilin noyabrında ölkəmizdə, eləcə də regionda ilk dəfə olaraq Bakı Elm Festivalı keçirilmişdir. Festivalın keçirilməsində əsas məqsəd Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan regionun elm mərkəzinə çevrilməlidir!” çağırışına cavab olaraq, elmimizin nailiyyətlərini, yeni innovasiyaları nümayiş etdirmək, cəmiyyətdə elmə olan marağı artırmaq olmuşdur. Bir sıra sərgiləri, mühazirələri, elmi səyahətləri, maraqlı şou və digər əyləncəli proqramları əhatə edən tədbirdə xarici qonaqlar, respublikamızın dövlət və özəl qurumlarının nümayəndələri, orta və ali təhsil müəssisələrinin çoxsaylı şagird və tələbələri, həmçinin digər vətəndaşlar iştirak etmişlər.

Elmin populyarlaşdırılması və elmi problemlərin geniş müzakirəsini təmin etmək üçün beynəlxalq təcrübəyə əsaslanaraq Akademiyada “Alimlər evi” də təsis edilmişdir.

Elmi biliklərin populyarlaşdırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərin təbliği, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Bilik fondu” yaradılmışdır. Hazırda Fond AMEA ilə birgə qeyd olunan istiqamətlər üzrə müxtəlif kütləvi layihələr həyata keçirir.

Məlum olduğu kimi, Strategiyada baza maliyyələşməsindən ünvanlı maliyyələşməyə keçid elmin maliyyələşməsi siyasətinin, necə deyərlər, əsas ideyasını təşkil edir.

Elmi-tədqiqat işlərinin müsabiqə əsasında maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu yaradılmışdır. Artıq neçə illərdir ki, bu fondun fəaliyyəti nəticəsində çoxlu sayda elmi layihələr uğurla maliyyələşdirilir.

Bundan başqa, Azərbaycanda neft, qaz və neft-kimya sənayesi ilə əlaqədar elmi araşdırmaları inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm Fondu təsis olunmuş və bu fondun maliyyə dəstəyi ilə bir sıra layihələr maliyyələşdirilmişdir.

Ünvanlı maliyyələşməyə keçidlə bağlı Akademiyada bir sıra islahatyönlü tədbirlər gerçəkləşdirilmişdir. AMEA Rəyasət Heyətinin “Elmi tədqiqat proqramlarının müsabiqəsi haqqında” 9 aprel 2014-cü il tarixli qərarının icrası ilə əlaqədar aktual elmi və texnoloji problemlərin həllinə yönəlmiş elmi-tədqiqat proqramlarının seçilməsi və məqsədli maliyyələşdirilməsi istiqamətində tədbirlər reallaşdırılmışdır.

Strategiyada əksini tapan mühüm məsələlərdən biri elmin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlıdır. Təqdirəlayiq haldır ki, icra müddəti ərzində elmi müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində kifayət qədər təmir-tikinti, abadlıq işləri həyata keçirilmişdir.

Mərkəzi Elmi Kitabxananın və “Azərbaycan Milli Ensiklopediyası”nın yeni binaları müasir üslubda tikilib istifadəyə verilmişdir. Minnətdarlıq hissi ilə qeyd etmək istərdik ki, bu mərkəzlərin açılışında cənab Prezident şəxsən özü iştirak etmişdir.

Bundan başqa, Respublika Prezidentinin digər sərəncamları ilə ayrılmış vəsaitlər hesabına AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya, Dilçilik institutlarında, muzeylərində yüksək səviyyədə təmir-bərpa, yenidənqurma işləri aparılmış, elmi müəssisələr müasir avadanlıqlarla təchiz edilmişlər.

Həyata keçirilən tədbirlər nəticəsində elmi qurumların siması əsaslı şəkildə dəyişmişdir. Fəxarət hissi ilə demək olar ki, son illərdə doğma Bakı şəhərinin simasının sürətlə dəyişməsində, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsində tarixlə müasirliyin vəhdətini özündə təcəssüm etdirən elmi müəssisə binalarının da xüsusi payı vardır.

Strategiyanın icrası istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər, ayrı-ayrı faktlar, təfərrüatlar haqqında çox danışmaq olar. Bu gün Azərbaycan alimləri dövlətin elm qarşısında qoyduğu vəzifələrin həyata keçirilməsi istiqamətində uğurla fəaliyyət göstərməkdədir. İndi Azərbaycan elmi dünya elminə sürətli inteqrasiya olunmaqla ölkədə formalaşmaqda olan biliklər iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir. Milli Strategiyanın həyata keçirilməsi ilə insan kapitalının inkişafı, innovasiya fəallığının yüksəldilməsi, elm və istehsalat arasında əlaqələrin artırılması istiqamətində böyük aktivlik və ruh yüksəkliyi müşahidə olunur. Dediklərimi ümumiləşdirərək diqqətə çatdırım ki, Milli Strategiyanın icrası nəticəsində Azərbaycan elmi yeni mərhələyə qədəm qoymuşdur. Buna baxmayaraq, Azərbaycan elminin gələcək inkişafı ilə bağlı qarşıda duran vəzifələrimiz də az deyildir.

Dünya olduqca sürətlə inkişaf edir. Azərbaycan istər beynəlxalq geosiyasi münasibətlər, istərsə də regional sosial-siyasi proseslər baxımından mürəkkəb bir dövrdə yaşayır. Belə bir şəraitdə Azərbaycan alimlərinin üzərinə xüsusi məsuliyyət düşür. Bəli, əsas ağırlıq intellektin, Sizlərin, bizlərin üzərinə düşür. Zamanın müvafiq tələblərindən irəli gələrək Azərbaycan elminin yeni doktrinasını müəyyənləşdirmək, müasir şəraitdə biliklər iqtisadiyyatına və yüksək texnologiyalara əsaslanan elmi potensialı gücləndirmək, milli innovativ mühiti formalaşdırmaq, elm-təhsil-istehsalat münasibətlərini yeni keyfiyyətdə inkişaf etdirmək, qloballaşan və virtuallaşan dünyada ölkəmizə, xalqımıza yönəlmiş daxili və xarici təhlükələrə qarşı elmi potensialı səfərbər etmək, milli təhlükəsizliyin təmin edilməsi və milli dəyərlərin qorunmasında elmin yaxından iştirakına nail olmaq olduqca vacibdir. Hesab edirəm ki, bu vəzifələrin öhdəsindən gəlmək üçün növbəti mərhələdə də elmin inkişafı üzrə yeni Milli Strategiyanın hazırlanıb qəbul edilməsi zəruridir. Elmlər Akademiyasında bu istiqamətdə fəaliyyətə artıq start verilmişdir.

Əminəm ki, Azərbaycan alimləri müasir zamanın çağırışlarından irəli gələn elmi-strateji vəzifələrin həyata keçirilməsində səy və istedadlarını əsirgəməyəcək, yeni Milli Strategiyanın icrasında olduğu kimi, yenə də qarşıya qoyulan vəzifələrin reallaşması istiqamətində həmrəylik nümayiş etdirəcəklər. ■



**Akif ƏLİZADƏ,**
**AMEA-nın prezidenti, akademik.**